**AZƏRBAYCAN RESPUBLİKASI**
**AĞSU RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I**

**№** 173

**Ağsu şəhəri** **"26" dekabr 2024-cü il**

**"Ağsu RİH yanında İctimai Şuraya seçkinin təşkili məqsədi ilə komissiya"nın yaradılması haqqında**

"İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikasının Qanununun icrasının təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 may tarixli 171 nömrəli qərarı ilə təsdiq edilmiş "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.3-cü və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 6.8-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

**1.** Rayon İcra Hakimiyyəti yanında İctimai şuraya seçkinin təşkili məqsədi ilə 9 nəfərdən ibarət olmaqla aşağıdakı tərkibdə seçki komissiyası təşkil edilsin:

**Komissiyanın sədri:**

| | |
|---|---|
| Sevil Mirzəliyeva | -RİH başçısının müavini, İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| Vüqar Hüseyinov | - RİH başçısı Aparatının Hüquq şöbəsinin müdiri |
| Ceyhun Hüseynov | - RİH başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri |
| Fikrət Tarverdiyev | - RİH başçısı aparatında Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin baş məsləhətçisi, |
| Zeynalov Cəmaləddin | - Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq mühafizə Orqanları Veteranlar Şurasının sədri |
| Azər Xəlilov | - QMƏVŞA İctimai Birliyinin rayon şöbəsinin üzvü, şəhid atası |
| Nadir Orucov | - Ağsu Bələdiyyəsinin sədri |
| İlham Məmmədov | - Dövləq Qulluqçuları Həmkarlar İttifaqı rayon rayon Komitəsinin sədri |
| Yalçın Pənahov | - "Ağsu" qəzetinin baş redaktoru |

**2.** Seçki Komissiyası;

Seçki Komissiyasına tapşırılsın ki, ictimai şuraya seçkini "İctimai Şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun təşkil etsin;

**3.** Rayon İcra Hakimiyyətinin fəaliyyət istiqamətlərinin genişliyini və iş həcmini nəzərə almaqla ictimai şura üzvlərinin say həddini müəyyən etsin;

**4.** Rayon İcra Hakimiyyətinin rəsmi internet səhifəsindən (www.agsu-ih.gov.az) və mövcud olan digər vasitələrdən istifadə etməklə İctimai Şuraya seçkilərin təşkili ilə əlaqədar olaraq namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtını elan etsin;

**5.** Komissiyaya tapşırılsın ki, Ağsu Rayon İcra Hakimiyyəti yanında İctimai şuraya namizədlərin irəli sürülməsi və qeydiyyatını "İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin 2.9-cu maddəsinə uyğun olaraq 20 gün müddətinə başa çatdırılsın və seçkilərin İctimai şuranın vətəndaş cəmiyyəti institutları tərəfindən seçilməsinə dair Əsasnamə"nin tələblərinə uyğun olaraq həyata keçirilməsini təmin etsin;

**6.** Sərəncamın icrasına nəzarət rayon İcra Hakimiyyəti başçısının birinci müavini, Füzuli Kərimliyə tapşırılsın.

**Ağsu Rayon İcra Hakimiyyətinin başçısı** — **Rövşən Bağırov**

Azərbaycan Respublikası Ağsu Rayon İcra Hakimiyyətinin Başçısı